# Üçüncü artıqdır

## Azərbaycanla Ermənistan arasında sülhə gedən yol sərhədlərin hər hansı vasitəçisiz delimitasiyası və demorkasiyasından keçir

**Vətən müharibəsindən ötən 4 ildən çox zaman ərzində Azərbaycanla Ermənistan arasında hələ də sülh müqaviləsi bağlanmayıb. Bu, sözsüz ki, az qala hər gün bir məzhəbə (ağaya) qulluq edən Ermənistanın məkrli planları ilə bağlıdır.**



Öncə Rusiyaya, sonra da Qərbə sığınan qonşumuz beynəlxalq hüquqdan uzaq dayanaraq sülh sənədinə icazəsiz imza atmağa cürət etmir və cürətsizliyini ən müxtəlif bəhanələrlə ört-basdır etməyə çalışır.

Ermənistan kənar tərəflərin bu məsələyə cəlb olunmasını istəməklə vəziyyəti daha da çətinləşdirir. Rəsmi İrəvan anlamır ki, üçüncü, dördüncü tərəflər Cənubi Qafqazda yalnız öz maraqlarını güdürlər. Bu həqiqəti iki ölkə arasında dövlət sərhədlərinin delimitasiyası məsələsinə də aid etmək olar. Halbuki bu məsələdə istər Avropa İttifaqı, istərsə də Rusiyanın vasitəçiliyi ilə keçirilmiş görüşlərdə Azərbaycan dəfələrlə sərhədlərin müəyyənləşdirilməsinin və dəqiqləşdirilməsinin zəruriliyini bəyan edərək bildirmişdir ki, prosesin mümkün qədər tez başa çatdırılması üçün sərhədlərin delimitasiya və demarkasiyasında heç bir üçüncü tərəf və ilkin şərt olmamalıdır. Bununla Azərbaycan rəsmi mövqeyini ortaya qoymuşdur - dövlət sərhədlərinin delimitasiya-demarkasiyası münasibətlərin normallaşması və tərəflər arasında yekun sülh sazişi üçün ilkin şərtdir.

Prezident İlham Əliyev ötən ilin mayında Bakıda keçirilən "Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimindəki çıxışında demişdir ki, sərhədlərin delimitasiyası başlayıb, hətta demarkasiya işləri aparılır və buna hər hansı vasitəçi olmadan nail olunub: "Bu, bir daha göstərir ki, bizə vasitəçi lazım deyil, xüsusən də o insanlar ki, məhz öz məqsədlərini güdürlər. Onlar yardım etmək istəmir, onlar bizim bölgəyə siyasi və iqtisadi maraqları naminə müdaxilə etmək istəyirlər. Onlar bu alova yenidən odun atmaq istəyirlər. Biz Cənubi Qafqazda bunun baş verməsinə imkan verməyəcəyik. 30 illik toqquşmadan sonra Ermənistan da aydın şəkildə anlayır ki, biz Cənubi Qafqazda sülh istəyirik. Sülh bu bölgədə yalnız Azərbaycan ilə Ermənistan arasında normallaşma vasitəsilə əldə oluna bilər".

Məlumat üçün bildirək ki, sərhədin delimitasiyası dedikdə dövlətlər arasında dövlət sərhədinin ümumi mövqeyinin və istiqamətinin danışıqlar yolu ilə müəyyənləşdirilməsi nəzərdə tutulur. Azərbaycan-Ermənistan sərhədlərinin demarkasiyası isə mübahisə obyekti olan ərazilərdə müvəqqəti müəyyənləşdirilən xətt (zolaq) deməkdir. Demarkasiya xətti döyüşən tərəflər arasında xüsusi sazişlə müəyyənləşir.

Amma bu müəyyənləşmə yolunda Azərbaycan tərəfindən atılan addımlar hələ ki, müsbət nəticə vermir. "Qarabağ münaqişəsi" anlayışının birmənalı şəkildə aradan qaldırılmasına baxmayaraq, sərhəd problemi davam edir. Buna baxmayaraq, Azərbaycan sərhədlərin delimitasiya və demarkasiyasında həm maraqlı, həm də qərarlıdır. Təəssüf ki, Ermənistan tərəfi belə mövqe sərgiləmək iqtidarında deyil.

Bu gün Ermənistan tərəfindən sərhədlərin delimitasiya-demarkasiyasının qarşısının alınması sülh prosesinə ciddi ziyan vurur. Halbuki sülhün təmin olunması üçün indiki məqamda yeganə şərt sərhədlərin müəyyənləşdirilməsi və daha sonra kommunikasiya xətlərinin açılmasıdır. Başqa sözlə sülh müqaviləsinin imzalanması və Cənubi Qafqazda uzunmüddətli sülhün bərqərar olması üçün sərhəd probleminin həlli vacib və labüddür.

Yeri gəlmişkən qeyd edək ki, fevralın 14-də Baş nazirin müavini Şahin Mustafayev və Ermənistan Respublikasının Baş nazirinin müavini Mher Qriqoryanın sədrliyi ilə Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyası və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiya çərçivəsində videokonfrans formatında işçi görüş keçirilib. Görüşdə tərəflər delimitasiya işlərinin həyata keçirilməsi üçün tələb olunan təlimat layihələrini müzakirə edib, həmçinin komissiyaların növbəti əyani görüşünün təşkili ilə bağlı məsələlər üzrə fikir mübadiləsi aparıblar. Tərəflər növbəti görüşün tarixini və yerini işçi qaydada müəyyən etmək barədə razılığa gəliblər.

Ümid edək ki, növbəti görüşlərdə Ermənistan Azərbaycanın ədalətli tələbini özündə əks etdirən tarixi sənədlər çərçivəsində sərhədlərin müəyyənləşdirilməsi ilə bağlı dözümsüzlüyünə son qoyacaq, sərhəddəki qeyri-müəyyən vəziyyətin aradan qaldırılmasına mane ola biləcək mövqe nümayiş etdirməyəcək.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 16 fevral (№35).- S.2.